*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 349-360*

https://doi.org/10.62837/2025.1.349

**BƏKİROV NOVRUZ KAMAL OĞLU**
Filologiya elmləri üzrə fəlsəfə doktoru
Heydər Əliyev adına Hərbi İnstitutun dosenti
Polad Həşimov 9a, mənzil 13
*e-mail:* bekirov.novruz@mail.ru

**BƏYƏLİYEV RƏCƏB FAMIL OĞLU**
Heydər Əliyev adına Hərbi İnstitututun NATO/Sülh
naminə tərəfdaşlıq və Humanitar fənlər kafedrasının
baş müəllimi, polkovnik-leytenent
Bakı şhəri Binə qəsəbəsi Toğrul Əmirov küçəsi döngə 1
e-mail: beyeliyevreceb@gmail.com

# 2-Cİ QARABAĞ – VƏTƏN MÜHARİBƏSİ, BAŞLANMA SƏBƏBLƏRİ VƏ TARİXİ NƏTİCƏLƏRİ

**Xülasə:**

Müharibənin başlanmasının çox sayda səbəbləri vardır. Onlardan: birincisi, Qarabağ müharibəsinin nəticəsi olaraq Azərbaycanın 20% torpaqlqrının erməni silahlı qüvvələri tərəfindən işğal edilməsi; ikincisi, indiki Ermənistan və Qərbi Zəngəzur (keçmiş Dağlıq Qarabağ) ərazisində yaşayan bir milyondan çox soydaşlarımızın doğma ata-baba yurdlarından qovulması; Ermənistan tərəfindən BMT-nin 1992-ci ildə qəbul edlmiş dörd qətnaməsinin (822, 853, 874 və 884 saylı- erməni silahlı qüvvələrinin qeyd-şərtsiz Dağlıq Qarabağ ərazilərindən çıxarılması barədə) tələblərinin 30 ilə yaxın bir müddətdə yerinə yetirilməməsi; Ermınistan rəhbərliyinin 30 ilə yaxın müddətdə 11 dövlətdən ibarət ATƏT-in Minsk qrupunun qərarlarına hörmətsiz yanaşaraq icra etməmələri; 2018-ci ildə rəngli inqilab nəticəsində hakimiyyətə gəlmiş Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" kimi populist bəyanatları və Azərbaycanın işğal altında olmuş torpaqlarımıza ardıcıl olaraq qanunsuz səfərləri, 2019-cu ilin mart ayında Ermənistanın müdafiə naziri David Tonoyanın ABŞ-da rəsmi səfərdə olarkən "yeni torpaqlar üçün yeni müharibə" çağırışı, bu çağırışdan sonra Ermənistan tərəfindən cəbhə xətti boyunca bir sıra təxribatların törədilməsi; Livan Ermənilərinin Azərbaycanın işğal altındakı ərazilərinə köçürülməsi; Ermənilərin xaricdən yardım aldığı havadarlarının da onları bu münaqişənin alovlanmasına təhrik etmələri və s.

Nəticə olaraq qeyd edə bilərik ki, 44 günlük 2-ci Qarabağ Vətən müharibəsində Azərbaycan düşmənin bizə qarşı edilmiş çoxsaylı təxribatlarına cavab olaraq "Dəmir yumruq" adı altında hərbi antiterror əməliyyatını həyata keçirmişdir. Ermənistanın qurduğu "keçilməz Ohanyan səddi" Ordumuz tərəfindən darmadağın

edilmiş, düşmənə canlı qüvvə və hərbi texnika baxımından küllü miqdarda itki verilmiş, onlar tərəfindən işğal edilmiş 20% torpaqlarımız geri qaytarılaraq işğala son qoyulmuşdur.

Bu gün Azərbaycan xalqı müzəffər xalq, qalib dövlət kimi yaşayır. Azərbaycan dövləti öz xalqı və müzəffər ordusu ilə xeyirin şər üzərindəki qələbəsini və tarixi ədaləti bərpa etdi. Azərbaycan 44 günlük Vətən müharibəsi nəticəsində BMT qətnamələrinin tələblərini yerinə yetirərək bölgəyə sülh və əminamanlıq gətirdi

**Açar sözlər:** Azərbaycan, Vətən müharibəsi, Qarabağ, Zəngəzur, Ermənistan, qətnamə.

**Giriş:**

Birinci və ikinci Qarabağ müharibəsi XX əsrin ən faciəli münaqişələrindən biri hesab edilir.

XX əsrin sonlarında, yəni daha dəqiq desək dünyanın ən nəhəng imperiyalarından biri hesab edilən SSRİ(Sovet Sosialist Respublikaları İttifaqı) 1990-cı illərdə buraxıldıqdan sonra keçmiş Respublikalar öz müstıqilliklərini bəyan etdilər. Ancaq bütün bunlara baxmayaraq özünü SSRİ-nin varisi hesab edən RFR(Rusiya Federativ Respublikası) keçmiş sovet respublikalarını yeni formada iqtisadi, siyasi və hərbi təsir altında saxlayaraq asılılığa keçirməyə cəhdlər etmişdir.

1988-1992-ci illərdə Ermənistan tərəfindən Azərbaycanın 20% torpaqları havadarlarının dəstəyi ilə işğal edilmiş, bir milyondan artıq soydaşlarımız öz ata-baba yurdlarından qovulmuşlar[14; s.305].

Bütün bunların nəticəsi olaraq 1991-ci ildə öz müstəqilliyini bəyan etmiş Azərbaycan Erməni aqressorunun hərbi təsirinə məruz qalmışdır. Bu işdə ermənilərə xarici aqressorlarla bərabər bilavasitə Rusiya Federativ Respublikası da yardımlar edirdi. Avropa dövlətləri isə bu münaqişəyə ikili standartlarla yanaşırdı. Ermənistan tərəfindən Azərbaycana qarşı edilmiş təcavüzlərlə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən 822, 853, 874 və 884 saylı qətnamələr qəbul edilmişdir. Buna baxmayaraq qeyd edilən qətnamələrin tələbləri 30 ilə yaxın bir müddədə icra edilməmişdir. Bu müddət ərzində isə ermənistanla şərti sərhəddə Azərbaycan tərəfi daima təcavüzə məruz qalmışdır[1, s.3].

2020-ci il sentyabrın 27-də Ermənistan tərəfi beynəlxlq hüquq normalarını, konvensiya, normativ aktlar və atəşkəslə bağlı qəbul edilmiş sənədlərin tələblərinə məhəl qoymadan Azərbaycana qarşı şərti sərhəd boyunca irimiqyaslı əməliyyata başlamışlar. Azərbaycan tərəfi erməni təcavüzünə qarşı antiterror əməliyyatı başlamağa məcbur olmuşdur. Nəticədə 44 günlük 2-ci Qarabağ Vətən müharibəsi baş vermişdir.

Azərbycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev həmin gün xalqa müraciət edərək qeyd etmişdir: “Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”[2, 168s.].

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 349-360*

44 günlük 2-ci Qarabağ Vətən müharibəsi nəticəsində Azərbaycan Ordusu düşmən tapdağı altında qalan 20% torpaqlarımızı 2020-ci il noyabr ayının 10-da işğaldan tamamilə azad etmişdir.

**Əsas hissə:**

İkinci Qarabağ Vətən müharibəsinin başlanma səbələri bir çox tarixi məqamlarla bağlıdır. Birincisi, 1799-cu ildən Çar Rusiyasının cənub sərhədlərinin genişlənməsi məqsədilə aprdığı işğalçılıq siyasəti və işğalın baş tutması; ikincisi, 1828-ci ilədək gedən müharibə nəticəsində Azərbaycanda dövlətçiliyin tamamilə süqutu, ərazilərimizin bir neçə dövlət arasında bölüşdürülməsi; üçüncüsü, Azərbaycan ərazilərində yeni dövlətlərin yaradılması. Məsələn, İran, Ermənistan və Gürcüstan kimi, Azərbaycanın Dağıstan vilayəti isə Çar Rusiyasının ərazisinə qatılmışdır[3].

Azərbaycanın bir dövlət kmi süqut etməsinə baxmayaraq, xalq daima azadlıq ideyaları ilə yaşamış, bu ideyaları tarixi əsərlərində, klassik və şifahi xalq ədəbiyyatında yaşatmışlar. Xalq asimilyasiya təhlükəsində qalmasına baxmayaraq müstəqillik ideyalarını təbliğ edərək gələcək nəsillərə ötürə bilmişdir.

Azərbaycan xalqı 1988-ci ildən başladığı azadlıq hərəkatının nəticəsi olaraq 1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş, BMT çərçivəsində müstəqil dövlət kimi tanınmışdır.

Azərbaycanın dövlət müstəqilliyini həzm edə bilməyən xarici aqressorlar (eləcə də Fransa başda olmaqla bir sıra Avropa ölkələri) Ermənitana hərbi, siyasi və iqtisadi dəstək olaraq müair Azərbaycanın 20% toppaqlarının işğal edilməsində onlara yardımçı olmuşlar. Qərbi Azərbaycan və Zəngəzurda yaşayan insanlara təcavüz nəticəsində onlar fiziki məhv edilməklə bərabər tarixi dədə-baba torpaqlarından qovulmuş, bir milyona qədər azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə olmasına səbəb olmuşlar.

Azərbaycan xalqının başına gətirilən bütün bu faciələrə eyni zamanda 1991-1994-cü illərdə birinci Qarabağ müharibəsi zamanı baş vermiş hadisələri aid etmək olar.

Nəhayət, 1994-cü ildə xalqın təkidi ilə hakimiyyətə gətirilmiş Ümummilli Lider Heydər Əliyev ilk növbədə Erməni təcavüzünün qarşısını almaq, bununla da yeni ərazilərimizin işğalına son qoymaq məqsədi güdürdü. Sonunda BMT çərçivəsində, digər beynəlxalq təşkilatla, dünya siyasi elitası və dünyada nüfuz sahibi olan fiziki və hüquqi şəxslərlə şəxsən apardığı işlərin nəticəsi olaraq 1994-cü ildə atəşkəsə nail ola bilmişdir[4].

30 ilə yaxın bir müddət əzində atəşkəsə baxmayaraq Ermənistan tərəfi BMT qətnamələrinin tələblərinə əsasən işğal altında olan Azərbaycan torpaqlarını qeyd-şərtsiz qaytarmalı olduğu halda beynəlxalq hüquqa, beynəlxalq saziş və konvensiyalara, eləcə də tərəflər arasında danışıqlar prosesində əldə edilmiş razılaşmalara məhəl qoymadan atəşkəs rejimini daima pozmuş, hətta yeni ərazi

iddiaları ilə çıxış etmişlər. Ermənilər bu məqsədlə vaxt udmaq, əldə olunmuş status-kvonu möhkəmləndirmək, bununla da işğal etdikləri ərazilərimizi əbədi olaraq özünküləşdirmək niyyəti daşıyırdı.



Təbii ki, bu kimi səbəbləri biz çox sadalaya bilərik. Ancaq nə Azərbaycan xalqı, nə də hakimiyyət bu işğalla barışa bilməzdi və məlum olduğu qədər heç vaxt barışmadı da. Əksinə, 2003-cü ilədək Ümummilli Lider Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti sayəsində dövlətimiz hərbi, iqtisadi, siyasi və digər sahələrdə inkişaf etdi, dayanıqlığı daha da möhkəmləndi, beynəlxalq arenada nüfuz qazandı.

Heydər Əliyev beynəlxalq aləmdə dövlətin gücünə hörmət edildiyini yaxşı bildiyinə görə qazanılmış atəşkəs rejimindən istifadə edərək ordu quruculuğu sahəsinə xüsusi önəm vermiş və bu sahəni inkişaf etdirərək müasir ordular səviyyəsinə çatdırmışdır. Heydər Əliyev ordu quruculuğu sahəsində apardığı işlərlə bərabər qeyd etmişdir: “Ordu ölkəmizin, millətimizin, dövlətimizin və müstəqilliyimizin dayağıdır”[5].

1994-cü ildə on bir ölkənin iştirakı ilə yaradılmış ATƏT-in Minsk qrupu Ermənistan-Azərbaycan münaqişəsində beynəlxalq hüququn tələblərini rəhbər tutaraq ədalətli həllini süni surətdə uzadır, bu sahədə məsələlərin həllinə ikili standartlarla yanaşırdılar. Onlar Azərbaycanın haqq səsini eşitməzdən, ədaləti isə görməzdən gəlirdilər. Bütün bunlara biganə qalmayan Heydər Əliyev deyirdi: “Sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır”[5; 18].

2003-cü ildən bu yolu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ilk növbədə ölkənin ərazi bütölüyünün bərpası üçün iqtisadi və hərbi gücün vacibliyini bəyan etdi. Prezident

İlham Əliyev ordu quruculuğu sahəsində Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirərək ciddi uğurlara nail olmuşdur[15,səh.12].

İlham Əliyev tərəfindən aparılan düzgün və düşünülmüş siyasət nəticəsində Azərbaycan iqtisadi gücünü artıraraq tam dövlət müstəqilliyinin təməllərini daha da möhkəmləndirdi. Ölkənin iqtisadi cəhətdən təməllərinin möhkəmləndirilməsi ordu quruculuğunda da yüksəlişə səbəb oldu. Azərbaycan öz inkişaf modelini yaradaraq müasir dünya dövlətləri arasında heç bir dövlətdən asılı olmayan müstəqil dövlətə çevrildi. Azərbaycan digər dövlətlərdən fərqli olaraq özünəməxsus inkişaf modeli yaratdı.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 349-360*

Azərbaycan ordu quruculuğu sahəsində yeni uğurlara imza atdı, ordunun arsenalını yeni silah və texnika ilə gücləndirildi, hərbiçilərin təhsil sistemində əsaslı islahatlar aparılaraq təkmilləşdirildi, onların sosial-təminat məsələlərinə yenidən baxılaraq sosial müdafiə məsələləri həll edildi.

Azərbaycanda müdafiə sənayesinin inkişafı Respublikanın Prezidenti tərəfindən şəxsən nəzarətdə saxlanılır, müdafiə sənayesinin inkişafı və bu sahədə işlər durmadan davam etdirilir. Hazırda Azərbaycan ordusunun daxili tələbatının böyük hissəsi dövlətdaxili istehsal hesabına ödənilir. Dövlətimizdə 1000-dən çox adda hərbi təyinatlı məhsullar istehsal olunur. Məlum olduğu kimi ölkəmiz silah alan ölkədən silah ixracatçısına çevrilmişdir. Müasir Azərbaycan ordusunun gücü dəfələrlə Azadlıq meydanında keçirilmiş hərbi paradda nümayiş etdirilmişdir.

Bütün bunları qeyd edərək deyə bilərik ki, Azərbaycan xalqı 30 illik dövr ərzindəki işğalla barışmayaraq əzmlə çalışdı. Prezidentimiz İlham Əliyevin Respublikaya 20 ildən çox rəhbərliyi dövründə yetişən, formalaşan vətənpərvər gənclər vətəni qorumaq, işğal altında olan torpaqlarımızın düşmən tapdağından azad edilməsi üçün hər cür fədakarlığa hazır olduqlarını əməli işlərilə sübut etmişlər. Ötən dövr ərzində Respublika rəhbərliyi tərəfindən aparılan məqsədyönlü işlərin nəticəsində Azərbaycan düşmən üzərində mütləq qələbəsini qazana bilmişdir[16, səh.9].

Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərini rəhbər tutaraq, münaqişənin həlli məqsədilə yaradılmış ATƏT-in Minsk qrupunun tələb və tövsiyələrinə daima əməl etmiş, BMT qətnamələrin tələblərini rəhbər tutmuşdur. Azərbaycan tərəfindən Ermənistana dəfələrlə işğal etdikləri torpaqlarımızdan öz silahlı qüvvələrini çıxararaq geri qayıtmaları barədə tələb və tövsiyələr edilmişdir. Ancaq bütün bunlara baxmayaraq Ermənistan tərəfi mütəmadi olaraq 1994-cü ildə əldə edilmiş atəşkəs sazişnin tələblərini pozmuş, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərini yerinə yetirməməklə sülh tərəfdarı olmadığını aşıq şəkildə bildirmiş olmuşdur[19].

2019-cu il avqustun 5-də Ermənistan baş naziri Nikol Paşinyan "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə" deməklə nə sülh müqaviləsindən, nə də qoşunlarının Qarabağdan çıxarılmasından danışmır, əksinə Ermənistanın işğalçılıq siyasətini təsdiq etmiş olmuşdur. Azərbaycan xalqı və Prezident Ermənistanın belə bir siyasətini qəti surətdə rədd etdi. Azərbaycan Respublikasının Prezidenti 2019-cu il oktyabr ayının 3-də "Valday" Beynəlxalq Diskussiya klubunun 16-cı illik iclasında çıxışı zamanı N.Paşinyanın bu bəyanatının qarşılığında "Qarabağ Azərbaycandır və nida işarəsi" deməklə sərt reaksiya vermişdir.

Prezident İlham Əliyev bu dövrü aydın şəkildə belə təsvir etmişdir: "Bəli, onlar Dağlıq Qarabağı müstəqil dövlət adlandırmış, növbəti mərhələdə yeni xəritələr çap etmiş və bütün ətraf rayonlarımızı Dağlıq Qarabağ adlandırmağa başlamışlar. Şəhər və kəndlərimizin adları dəyişdirilmiş və nəhayət, bizi yeni ərazilər uğrunda yeni müharibə ilə hədələməyə başlamışlar. Bunu deyən onların Tonoyan soyadlı

müdafiə naziri idi. O bəyan etmişdi ki, Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə hazırlaşır"[6].

2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhəddinin Tovuz istiqamətində növbəti hərbi təxribat törətdi. Təxribatın məqsədi regionda yeni yeni gərginlik mənbəyi yaratmaq, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı məsələsini ikninci plana keçirmək, üçüncü dövlətləri münaqişəyə cəlb etmək və Azərbaycanın strateji infrastrukturuna ziyan vurmaqdan ibarət idi. Ancaq bütün bunlara baxmayaraq Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə endirərək ona layiqli cavab verdi.

2020-ci ilin avqust ayında Ermənistan daha bir hərbi təxribata əl ataraq, terror aktları törətmək məqsədilə Azərbaycana diversiya qrupu göndərdi. Lakin Azərbaycan ordusu bu təxribat planını da pozdu.

2020-ci il sentyabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sesiyasının əsas debatlarında çıxışı zamanı Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlanması barədə dünya birliyini yenidən xəbərdar etdi: "Ermənistan bu yaxınlarda təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib... Biz BMT-ni və beynəlxalq ictimaiyyəti dəvət edirik ki, Ermənistanın növbəti hərbi təcavüzünü dayandırsınlar. Təxribatın baş verməsinə və gərginliyin artmasına görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür"[7].

Beləliklə, 2016-cı ilin aprel döyüşlərindən, 2020-ci ilin iyul döyüşlərindən Ermənistanın hərbi-siyasi rəhbərliyi lazımi dərs çıxarmadı və vəziyyəti daha da gərginləşdirməyə davam etdi.

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti irimiqyaslı hərbi əməliyyatlarına başlamasına, Azərbaycan Ordusunun mövqelərinə və mülki yaşayış məntəqələrinə atəş zərbələri endirməsinə cavab olaraq əks-hücum əməliyyatı işə düşdü, sonradan "Dəmir Yumruq" adını alan bu əməliyyat Vətən müharibəsinə çevrildi.

44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Respulikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müntəzəm müraciət etdi. Bu müraciətlər Azərbaycan xalqını ayağa qaldırdı, onu yumruq kimi sıx birləşdirdi, müharibənin gedişatına və taleyinə güclü təsir göstərdi. Hər bir müraciət növbəti qələbələrin müqəddiməsinə çevrildi.

2020-ci il sentyabın 27-də Vətən müharibəsi başlanır. Azərbaycan Respublikasının Prezidenti ilk müraciətində bütün cəmiyyəti qələbəyə köklədi: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"[8]. 2020-ci il oktyabrın 4-də xalqa 2-ci müraciətində Prezident İlham Əliyev düşmənə öz yerini göstərdi: "İndi biz göstərdik kim-kimdir... Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!"[9].

2020-ci il oktyabrın 9-da Azərbaycan Prezidenti status-kvonun artıq olmadığını və təmas xəttinin yarıldığını elan etdi: "Mən dəyişdirdim stasus-kvonu, dəyişdirdim! Bax, orada, döyüş meydanında. Yoxdur status-kvo. Təmas xətti, yoxdur təmas xətti. Yarmışıq onu. Onlar 30 ildir ki, qururdular bu təmas xəttini... Yarıb keçmişik. Azərbycan əsgərinin qarşısında heç kim heç nə edə bilməz"[10].

Azərbaycan Prezidenti əldə edilmiş nəticələrin düşünülmüş və vaxtında atılmış addımların bəhrəsi olduğunu, tələskənliyin yolverilməzliyini diqqətə çatdırdı. Prezident 2020-ci il oktyabrın 20-də xalqa beşinci müraciətində qeyd etmişdir: "Mən hər dəfə xalqıma müraciət edərkən xoş xəbər çatdırıram. Eyni zamanda, demək olar ki, hər gün öz "Twitter" hesabımda, "Twitter" vasitəsilə işğaldan azad edilmiş yeni kəndlərin, şəhərlərin adlarını çəkirəm. Mən bilirəm ki, Azərbaycan xalqı bu xəbərləri hər gün gözləyir, hər gün! Hər gün, hər saat ki, nə vaxt bu xəbər olacaq, nə vaxt bu xəbər çıxacaq?. Amma istəyirəm, əziz xalqım bilsin ki, hər kəndin, hər yüksəkliyin götürülməsi yüksək rəşadət tələb edir. Çünki təkcə orada qurulmuş istehkamlar deyil, eyni zamanda, azad edilmiş torpaqların hərbi relyefi də ermənilər üçün sərfəlidir. Çünki biz indi həm onların istehkmlarına, onların toplarına, onların raketlərinə qarşı, eyni zamanda təbii relyefə qarşı vurşmalıyıq və torpaqlarımızı işğalçılardan qarış-qarış azad edirik"[2].

2020-ci il oktyabrın 26-da 6-cı müraciətində dövlət başçısı Azərbaycan xalqına həlledici qələbəyə yaxın olduğunun müjdəsini verdi: "Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad etdik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik"[11].



Azərbaycan xalqının tarixinə 2020-ci ilin 8 noyabrı "Zəfər günü" kimi qızıl hərflərlə yazıldı. Prezident İlham Əliyev xalqa sayca yeddinci müraciətini Şəhidlər xiyabanından edərək Şuşa şəhərinin işğaldan azad olunmasını Azərbaycan xalqına, bütün dünya azərbaycanlılarına elan etdi: "Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt admam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! ... Bu gün Azərbaycan xalqı yumruq

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 1, 2025
Səh. 349-360

kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq... Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!"[9].

Şuşanın azad edilməsinin ardınca 70-dən çox yaşayış məntəqəsi bir neçə gün ərzində azad edildi. Düşmən diz çökdürülərək kapitulyasiya aktına imza atmağa məcbur edildi.

"Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri, Rusiya Federasiyasının Prezidentinin Bəyanatı" ilə 2020-ci il noyabrın 10-da Ermənistanın kapitulyasiya aktı imzalandı. İlham Əliyev həmin gün sayca 8-ci olan və şüara çevrilmiş "Qarabağ Azərbaycandır və nida" ifadəsini işlətdiyi çıxışı xalqımız üçün tarixi bir zəfər təbriki olaraq dillər əzbərinə çevrildi. Bu çıxışda Prezident İlham Əliyev Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulduğunu elan etdi: "... nə oldu bəs ststus? ... yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm, olmayacaq. Ona görə, bu sənədin çox böyük mənası var. Əminəm, hər bir Azərbaycan vətəndaşı hesab edir ki, onun həyatında bu günlər, bu dəqiqələr ən xoşbəxt günlər, dəqiqələrdir. Mən xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xobəxtəm ki, biz öz vətənimizə, doğma Qarabağımıza qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!"[8; 12,s.6-7].



Azərbaycan Prezidenti 44 günlük 2-ci Qarabağ Vətən müharibəsinin nəticəsi olaraq Azırbaycan və Ermənistan arasındakı fərqin ən yaxşı nümunə olduğunu bildirdi: "Bizdə bir nəfər fərari oldumu? Olmadı! Bir nəfər də olmadı! Budur Azərbaycan xalqı! Mülki vətəndaşlar, evi dağılıb, malı batıb, yaxın insanını itirib, yenə də deyir ki, "Vətən sağ olsun". Ancaq irəli, irəli! Mənə yazılan məktublarda deyilir, Ali Baş Komandan, irəli! Dəstəkliyirik səni, get irəli, dayanma və getmişəm, dayanmamışam"[7; 13,s.13-19].

Prezident İlham Əliyev, həmçinin informasiya cəbhəsində Ermənistanın bütün təbliğatının üzərindən dünyanın aparıcı media qurumlarına müsahibələri ilə xətt çəkdi: "Bu müharibə dövründə 30-a yaxın müsahibə vermişəm. Ömrümdə bəlkə də bu qədər müsahibə verməmişəm …o müsahibələrdə demişəm ki, biz beynəlxalq hüquqa hörmətlə yanaşırıq, biz beynəlxalq hüququ müdafiə edirik, biz ədaləti müdafiə edirik, biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik. Demişdim ki, bizim bütün addımlarımız beynəlxalq hüququn norma və prinsipləri

əsasında, əxlaq əsasında görülüb və bütün addımlarımız bu istiqamətdə atılıb. İntiqamımızı düşməndən aldıq, işğalçıdan aldıq. Mülki vətəndaşlarla bizim işimiz olmayıb və olmayacaq. Düşmənin məskunlaşdığı, gizləndiyi şəhərlərdə böyük dağıntılar yoxdur. Çünki biz mülki obyektlərə atəş açmamışıq. Bax, bizim fərqimiz bundan ibarətdir”[4].

**Nəticə:**

Azərbaycan düşmənin bizə qarşı edilmiş çoxsaylı təxribatlarına cavab olaraq “Dəmir yumruq” adı altında hərbi antiterror əməliyyatını həyata keçirmişdir. Ordumuz tərəfindən 44 günlük 2-ci Qarabağ Vətən müharibəsi nəticəsində Ermənistan tərəfindən qurulmuş keçilməz Ohanyan səddi darmadağın edilmiş, düşmənə canlı qüvvə və hərbi texnika baxımından küllü miqdarda itki verilmiş, onlar tərəfindən işğal edilmiş 20% torpaqlarımız geri qaytarlaraq işğala son qoyulmuşdur[7].

Düşmənin məhv edilmiş hərbi texnikasının bir qismi 2020-ci il dekabrın 10-da Bakıda hərbi paradda nümayiş etdirilmiş, dünya ictimaiyyətinə göstərilməsi üçün isə Qənimətlər parkında yerləşdirilmişdir.

Dövlətimiz tərəfindən əldə edilmiş hərbi qələbəmiz siyasi müstəvidə də davam edir. Tərəfimizdən aparılan məqsədyönlü tədbirlər nəticəsində müharibədən sonrakı 20 gün ərzində Ağdam, Kəlbəcər və Laçın bir güllə atılmadan, bir şəhid vermədən alınmışdır. 44 gün ərzində Azərbaycanın ərazi bütövlüyü bərpa edilmiş, Ermənistan-Azərbaycan münaqişəsi tarixə çevrilmişdir.

44 günlük 2-ci Qarabağ Vətən müharibəsi Azərbaycana parlaq qələbə qazandırdı, işğala son qoyuldu. 44 günün hər günü Azərbaycanın şanlı tarixidir [6].

Azərbaycan xalqı Vətən uğrunda şəhid olan qəhrəman övladlarının xatirəsini həmişə əziz tutur, onların əziz xatirəsini daima xüsusi ehtiramla yad edir, qazilərini yüksək qiymətləndirərək onlarla qürur duyur.

Xalqımız erməni qəsbkarları tərəfindən minalarla çirklənmiş torpaqlarımızı təmizləyərək bir milyona qədər qaçqın və köçkünlərimizin doğma yurdlarına böyük qayıdış başlanmışdır.

2021-ci il iyunun 15-də Azərbacan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiklik münasibətləri haqqında Şuşa bəyannaməsi imzalnmışdır. Bəyannaməyə əsasən Zəngəzur dəhlizinin açılması gündəmə gətirilmişdir.

Bu gün Azərbaycan xalqı müzəffər xalq, qalib dövlət kimi yaşayır və bundan sonra da belə olacaq. Azərbaycan dövləti öz xalqı və müzəffər ordusu ilə xeyirin şər üzərindəki qələbəsini və tarixi ədaləti bərpa etdi.

Azərbaycan 44 günlük Vətən müharibəsi nəticəsində BMT qətnamələrinin tələblərini yerinə yetirərək bölgəyə sülh və əminamanlıq gətirdi[5; 17].

## Ədəbiyyat siyahısı:

1. Faiq Balabəyli. Qarabağ müharibəsinin ilk qalib generalı. Bakı, "Elm və təhsil", 2010, səh.3 (256s.).
2. Piriyev, H.K., Tahirov, R.K., İsgəndərov, X.İ. Qarabağ müharibısi. Hərbi-siyasi təhlil. – Bakı: hərbi nəşriyyat, - 2022, - səh.3 (168 səh.).
3. https://az.wikipedia.org/wiki/%C4%B0kinci_Qaraba%C4%9F_m%C3%BCharib%C9%99si
4. Aydın Mirzəzadə, Vətən müharibəsinin tarixi-siyasi dərsləri, Bakı, I nəşr — Qərbi Kaspi Universitetinin nəşriyyatı, II nəşr — "Azərbaycan" nəşriyyatı, səh. 282, 2022.
5. https://genprosecutor.gov.az/az/page/azerbaycan/i-ve-ii-qarabag-muharibesi/44-gun-suren-veten-muharibesi-ii-qarabag-muharibesi
6. https://portal.azertag.az/az/node/24178
7. https://www.bbc.com/azeri/azerbaijan-63455970
8. https://www.virtualkarabakh.az/az/post-item/52/2871/ikinci-qarabag-muharibesi.html
9. https://genprosecutor.gov.az/az/page/azerbaycan/i-ve-ii-qarabag-muharibesi/
10. https://yeniazerbaycan.com/Arxiv_e59330_az.html
11. https://shamkir-ih.gov.az/news/2178.html
12. Azərbaycanın dövlət və hüquq tarixi. II hissə. S. Səfərov. Bakı-2021. "Müəllim nəşriyyatı", s.6-7;
13. Kommentariya: inzibati icraah haqqında Azərbaycan Respulikasının qanunu. Səyyad Kərimov, Günəş Vəliyeva. Bakı. Hüquq ədəbiyyatı nəşriyyatı,2006. Səh.13-19.
14. Bəkirov. N. Politologiya və beynəlxalq münasibətlər. – Bakı, Hərbi Nəşriyyat, - 2014. S.305.
15. Əyyub Əsgərov. Beynəlxalq hüquq- dərs vəsaiti. "Maarif" nəşriyyatı. Bakı-1979.s.12
16. Azərbaycan Respublikası Müdafiə Nazirliyi. "Əbədiyaşar Komandan". Bakı-2004, s.9;
17. Babaoğlu, H. Yeni siyasi konfiquryasiya nələr vəd edir...– Partiya. Medern.az. https//medern.az.>news.
18. Novruz Bəkirov: "Xalqın xilaskarı" – "Azərbaycan ordusu" qəzeti, 14 iyun 2005-ci il 51(1158).
19. Novruz Bəkirov: "Ermənistan –Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ATƏT tərəfindən nizamlanması prosesi"-"Elmi əsərlər № 3" 2012-ci il İSSN 1815-1779, Azərbaycan Texniki universiteti

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 349-360*

**Новруз Бекиров**
**Байалиев Раджаб**

## 2-Я КАРАБАХ – ОТЕЧЕСТВЕННАЯ ВОЙНА, ПРИЧИНЫ ИНИЦИАЦИИ И ИСТОРИЧЕСКИЕ РЕЗУЛЬТАТЫ

**РЕЗЮМЕ**

Причин для начала войны много. Среди них: во-первых, в результате Карабахской войны 20% земель Азербайджана были оккупированы армянскими вооруженными силами; во-вторых, изгнание более миллиона наших соотечественников, проживающих на территории нынешней Армении и Западного Зангезура (бывшего Нагорного Карабаха), из своих исконных домов; Армения не выполнила требования четырех резолюций ООН, принятых в 1992 году (о безоговорочном выводе вооруженных сил Армении с территорий Нагорного Карабаха № 822, 853, 874 и 884); Неуважение к решениям Минской группы ОБСЕ, состоящей из 11 стран, руководством Армении на протяжении почти 30 лет;

Популистские заявления Никола Пашиняна, пришедшего к власти в результате цветной революции 2018 года, типа «Карабах – это Армения и точка» и последовательные незаконные визиты Азербайджана на наши оккупированные земли в марте 2019 года, когда министр Министерства обороны Армении Давид Тоноян находился с официальным визитом в США, призыв «новая «новая война за земли», после этого призыва Армения совершила ряд провокаций вдоль линии фронта; Переселение ливанских армян на оккупированные территории Азербайджана; То, что покровители армян, получившие помощь из-за границы, подстрекали их к разжиганию этого конфликта и т.д. В результате можно отметить, что в ходе 44-дневной 2-й Карабахской Отечественной войны Азербайджан провел военную антитеррористическую операцию под названием «Железный кулак» в ответ на многочисленные провокации врага против нас. Построенный Арменией «непробиваемый Оганянский барьер» был разрушен нашей армией, враг понес огромные потери в живой силе и военной технике, 20% оккупированных ими наших земель были возвращены и оккупация прекращена. Сегодня азербайджанский народ живет как победившая нация, победившее государство. Азербайджанское государство своим народом и победоносной армией восстановило победу добра над злом и историческую справедливость. По итогам 44-дневной Отечественной войны Азербайджан выполнил требования резолюций ООН и принес мир и безопасность в регион.

**Ключевые слова:** Азербайджан, Отечественная война, Карабах, Зангезур, Армения, резолюция.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 349-360*

**Novruz Bekirov**
**Bayaliyev Racab**

## 2nd KARABAKH – PATRIOTIC WAR, CAUSES OF INITIATION AND HISTORICAL RESULTS

**SUMMARY**

There are many reasons for the outbreak of war. Among them: first, as a result of the Karabakh war, 20% of Azerbaijan's land was occupied by Armenian armed forces; secondly, the expulsion of more than one million of our compatriots living in the territory of present-day Armenia and Western Zangezur (former Nagorno-Karabakh) from their ancestral homes; Armenia has not fulfilled the requirements of the four UN resolutions adopted in 1992 (on the unconditional withdrawal of the Armenian armed forces from Nagorno-Karabakh territories No. 822, 853, 874 and 884); The lack of respect for the decisions of the OSCE Minsk Group, which consists of 11 countries, by the management of Armenia in nearly 30 years; The populist statements of Nikol Pashinyan, who came to power as a result of the color revolution in 2018, such as "Karabakh is Armenia and the point" and the consecutive illegal visits of Azerbaijan to our occupied lands, in March 2019, when the Minister of Defense of Armenia David Tonoyan was on an official visit to the United States, "new "new war for lands" call, after this call, Armenia committed a series of provocations along the front line; Relocation of Lebanese Armenians to the occupied territories of Azerbaijan; The fact that the patrons of the Armenians, who received help from abroad, incited them to flare up this conflict, etc.

As a result, we can note that during the 44-day 2nd Karabakh Patriotic War, Azerbaijan carried out a military anti-terrorist operation under the name "Iron Fist" in response to the numerous provocations of the enemy against us. The "impenetrable Ohanyan barrier" built by Armenia was destroyed by our army, the enemy suffered huge losses in terms of manpower and military equipment, 20% of our lands occupied by them were returned and the occupation was ended.

Today, the people of Azerbaijan live as a victorious nation, a victorious state. The state of Azerbaijan restored the victory of good over evil and historical justice with its people and victorious army. As a result of the 44-day Patriotic War, Azerbaijan fulfilled the requirements of UN resolutions and brought peace and security to the region

**Keywords:** Azerbaijan, Homeland war, Karabakh, Zangezur, Armenia, resolution.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Eynurə Babayeva**